# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN DƏRMAN BİTKİLƏRİ VƏ MÜALİCƏVİ NAFTALAN NEFTİ ƏSASINDA DƏRMAN VƏ KOSMETİK VASİTƏLƏRİN YARADILMASI SAHƏSİNDƏ ELMİ NƏTİCƏLƏR

**Vaqif Abbasov, Gültəkin İsayeva, Nəcla Nəbiyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, ms.necla@mail.ru*

Azərbaycan, xüsusən də onun işğaldan azad edilmiş əraziləri dərman bitkiləri ilə zəngindir. Bu bitkilərin efir yağlarının bir çoxu dərman və kosmetik vasitələrin hazırlanmasında istifadə oluna bilər. Eyni zamanda o da məlumdur ki, müalicəvi Naftalan neftinin dünyada analoqu yoxdur və bu neftin əsasında alınan aromatiksizləşdirilmiş yağ ikili funksiya daşıyır. Belə ki, o həm əsas dərman komponentinin daşıyıcısı, həm də müalicəvi komponent funksiyasını yerinə yetirir.

Son illərdə apardığımız tədqiqatlar nəticəsində bioloji aktiv Ağ Naftalan yağının və dərman bitkilərinin efir yağlarının, onların əsasında kosmetik vasitələrin və dərman vasitələrinin alınma texnologiyaları işlənib hazırlanmışdır. Hazırlanmış dərman vasitələri üçün (Naftaterm – Ç, bioloji aktiv Ağ Naftalan yağı, Naftakandid-C, Naftaderm-La, Naftakamfora, Naftakosmet-P, Naftakosmet-L, Gold-Naftalan) texniki şərtlər işlənilmiş və təsdiq olunmuşdur. Qeyd olunan məhsulların dərman vasitəsi kimi qeydiyyata alınması üçün Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə və İqtisadiyyat Nazirliyinə müvafiq sənədlər təqdim edilmişdir.

Alınmış elmi nəticələr işğaldan azad olunmuş ərazilərdə bitən dərman bitkilərinin səmərəli istifadəsində və Azərbaycan brendi ilə təbii dərman vasitələrinin və kosmetik vasitələrin istehsalında mühüm rol oynaya bilər.

Qeyd edək ki, hazırladığımız kompozisiyalardan üçünün ağcaqanadlara hürküdücü təsir göstərən kompozisiya olduğu aşkar edilmiş və patentləşdirilmişdir.

Yaradılmış kompozisiyaların istehsal qurğularının layihələndirilməsi üçün məlumatlar əldə etmək məqsədilə institutda təcrübə qurğuları yaradılmış, proseslərin optimal parametrləri müəyyənləşdirilərək, yağ nümunələri alınmışdır. Müasir analiz üsullarından (nüvə-maqnit rezonansı, infraqırmızı, kütlə spektroskopiyası və s.) istifadə etməklə yağların tərkibləri tədqiq olunmuşdur.

Efir yağlarının tərkibinə dair əldə olunmuş məlumatlara əsasən, dərman və kosmetik vasitələrin xassələri arasında asılılıqlar araşdırılmışdır. Efir yağlarının alınması qurğusunda institutda yaradılmış korroziya və duzçökmə inhibitoru istifadə edilməklə təbii suların istifadə imkanları aşkar olunmuşdur ki, bu da prosesin maya dəyərinin aşağı salınmasını təmin edir.